

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 28 iyun 2023-cü il №48 (2760) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına “general-mayor” ali hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına "general-mayor" ali hərbi rütbəsi verilsin:

polkovnik Elmir Zülfüqar oğlu İbrahimova
polkovnik Arif Həsən oğlu Həsənova
polkovnik İslam Şixzadə oğlu Əmirağayevə
polkovnik Bilal İsmayıl oğlu Çompuzova
polkovnik İlqar Saab oğlu Qafarova.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 iyun 2023-cü il

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**“Azərbaycan Bayrağı” ordeni ilə**

Hüseynov Münasib Asif oğlu - baş leytenant
Qocayev Aqil Bərşad oğlu - baş leytenant
Vəliyev Fərid Azər oğlu - baş leytenant
Usublu İslam Ələddin oğlu - baş gizir

**3-cü dərəcəli “Rəşadət” ordeni ilə**

Məmmədov Vüqar Zahid oğlu - mayor
Rzayev Orxan Ənvər oğlu - baş leytenant
Hüseynəliyev Elvin Fazil oğlu - leytenant

**3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Babaşov Nəsimi Məhərrəm oğlu - polkovnik
İsmayılov Füzuli Qəzənfər oğlu - polkovnik
Fərmanov Eldar Akif oğlu - mayor
Əhmədov Gülağa Əli oğlu - kapitan
Səlimov Fərhad Mehman oğlu - kapitan
Səmədli Səməd Bəxtiyar oğlu - leytenant
Süleymanov Cavid Fərhad oğlu - gizir
Mollayev Elçin Zaur oğlu - kiçik çavuş
Doşanov Nurlan Arif oğlu - əsgər

**“Vətən uğrunda” medalı ilə**

Əliyev Elçin Nəriman oğlu - ədliyyə polkovniki
Əmirov Mahmud Səməd oğlu - polkovnik
Abdullayev Azər Üzeir oğlu - polkovnik-leytenant

**(Ardı 2-ci səhifədə)**

## Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik



Sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İslam dininin əlamətdar mərasimlərindən olan Qurban bayramı özündə xeyirxahlığı, birlik və bərabərliyi, insanın ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq niyyətini əks etdirir.

Milli-mənəvi və dini dəyərlərinə həmişə sadiq olan Azərbaycan xalqı bütün dünya müsəlmanları ilə birlikdə Qurban bayramını qardaşlıq, humanizm və həmrəylik rəmzi kimi yüksək əhval-ruhiyyə ilə qeyd edir. Bu günlərdə həm Həcc ziyarətində, həm də ölkəmizin hər yerində dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, xeyriyyəçilik işləri görülür, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur.

Əziz bacı və qardaşlarım!

Ümidvaram ki, bu mübarək bayram günlərində dua və diləkləriniz gerçəkləşəcək, Uca Yaradan mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir. Bir daha hər birinizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 iyun 2023-cü il

## Azərbaycan Respublikasının müdafiə nazirinin 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki işçilər!

Sizi 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, Azərbaycan Respublikasının müdafiəsinin gücləndirilməsi naminə müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

Müstəqilliyi əbədi, dönməz olan Azərbaycan dövləti regionda möhkəm və davamlı sülhün, sabitliyin bərqərar edilməsində, qorunmasında mühüm rol oynayır.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə əsası qoyulmuş milli ordu quruculuğu müstəqilliyin yenidən qazanan ölkəmizdə tarixi varislik prinsipi əsasında müasir mərhələyə qədəm qoydu. 26 iyun 1918-ci ildə yaradılan Əlahiddə Azərbaycan Korpusu Cümhuriyyət Ordusunun hüquqi bazasını təşkil etmişdi.

Hərb tariximizin şanlı səhifəsi sayılan, bu gün 105 illiyini böyük qürur və iftixar hissi ilə qeyd etdiyimiz Azərbaycan Ordusunda vahid komandanlığın yaradılması, ordumuzun nizami ordu kimi formalaşması və hərbi quruculuq məsələlərinin prioritet məsələ kimi irəli sürülməsi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin bu istiqamətdə atdığı cəsarətli addımlarının nəticəsidir.

Ulu Öndərin siyasi kursunu ordu quruculuğu sahəsində uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sayəsində bu gün ordumuz dünya orduları ilə müqayisə ediləcək səviyyəyə çatdırılıb. Bu hər birimizi sevindirir və qürurlandırır. Ali Baş Komandan cənab İlham Əliyevin yüksək diqqət və qayğısının nəticəsidir ki, ölkəmizin müdafiə qüdrəti gündən-günə artaraq, xalq, dövlət, ordu birliyi monolit birliyə çevrilmişdir.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Ermənistan silahlı birləşmələrinin genişmiqyaslı təxribatlarına qarşı başlayan əks-hücum əməliyyatlarında - 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu 30 ilə yaxın müddətdə düşmən işğalında olan tarixi torpaqlarımızı azad etdi. Ali Baş Komandanın müdrik və uzaqgörən siyasəti, ordumuzun gücü sayəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Bu gün üçrəngli bayrağımızın əzəmətlə dalğalandığı işğaldan azad olunmuş torpaqlarımızda rəşadətli Azərbaycan Ordusu öz mövqelərini daha da möhkəmləndirməklə dövlətimizin başçısının rəhbərliyi ilə başlayan bərpa-quruculuq işlərinin ən yüksək səviyyədə həyata keçirilməsinə, böyük qayıdışa layiqli töhfələrini verməkdədir.

Şəhid ailələri, hərbi əməliyyatlar zamanı sağlamlığını itirən döyüşçülərimiz və müharibə veteranları daima dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanılır. Onların sosial-məişət şəraitinin yaxşılaşdırılması, qayğı və probemlərinin həlli istiqamətində göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığımızı bildiririk.

Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi andа və nizamnamələrə daim sadiq qalaraq, döyüş və mənəvi-psixoloji hazırlığınızı gücləndirəcək, xidmətinizdə yeni uğurlar əldə etmək üçün səy və bacarıqlarınızı daha da artıracaqsınız.

Hər zaman olduğu kimi, bu bayram günündə də Azərbaycanın suverenliyi, müstəqilliyinin qorunması və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizi ehtiramla yad edir, onların unudulmaz xatirəsini əziz tuturuq. Şəhid ailələrini və torpaqlarımızın müdafiəsində əzmlə dayanaraq hərbi əməliyyatlar zamanı sağlamlığını itirən döyüşçülərimizi də 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Bir daha bütün şəxsi heyəti ürəkdən təbrik edir, Sizə möhkəm can-sağlığı, uzun ömür, ailə səadəti, Vətənə, müstəqil Azərbaycan dövlətinə şərəfli xidmətinizdə uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir Həsənov**
**Azərbaycan Respublikasının müdafiə naziri**

## Prezident İlham Əliyev Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında 26 İyun - Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edib.

## Birinci vitse-prezident Mehriban Əliyeva Silahlı Qüvvələr Günü münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Ölkəmizin bütün hərbi qulluqçularını və veteranlarını təbrik edirəm! Hər kəsə möhkəm cansağlığı, Vətənimizə - sülh və əmin-amanlıq arzulayıram!".

# Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**(Əvvəli 1-ci səhifədə)**

Ayvazov Sahib Sabir oğlu - polkovnik-leytenant
Babayev Saqi Elxan oğlu - polkovnik-leytenant
Hüseynov Bayram Habil oğlu - mayor
Abdullayev Ramazan Səfəralı oğlu - kapitan
Ağayev Gülməmməd Elşən oğlu - kapitan
Cavadlı Kamal Xaləddin oğlu - baş leytenant
Əkbərov Ceyhun İman oğlu - baş leytenant
Əlibəyli Şəhriyar Ramiz oğlu - baş leytenant (ölümündən sonra)
Əzimli Calal Səlim oğlu - baş leytenant
Hüseyinov Elvin Laçın oğlu - baş leytenant
Hüseynov Kamran Namiz oğlu - baş leytenant (ölümündən sonra)
Novruzov Musa Cəmşid oğlu - baş leytenant
Əliyev Babək Əsgər oğlu - leytenant (ölümündən sonra)
Məmmədov Əyyub Vəliəddin oğlu - leytenant
Vəlizadə İbrahim Səməd oğlu - leytenant (ölümündən sonra)
Cahangirov Tural Qələmhüseyn oğlu - kiçik leytenant
Həsənov Elşad Qabil oğlu - gizir (ölümündən sonra)
Məhərrəmov Vasif Üzeyir oğlu - gizir (ölümündən sonra)
Zalov Vidadi Nizami oğlu - gizir (ölümündən sonra)
Tağıyev Səbuhi Gündüz oğlu - çavuş (ölümündən sonra)
Cabbarov Marlen Zeynulla oğlu - kiçik çavuş
İsmayılov Nicat Bəhruz oğlu - kiçik çavuş
Ramazanov Elxan Elmaroviç - kiçik çavuş
Bayramov İlkin Bayram oğlu - əsgər (ölümündən sonra)
Cavadov Rəşad Fərzəli oğlu - əsgər (ölümündən sonra)
Həmzəyev Əfqan Bəhman oğlu - əsgər (ölümündən sonra)
Hüseynov Eşqin Cəmil oğlu - əsgər (ölümündən sonra)
Qədirli Elnur Rəcəb oğlu - əsgər (ölümündən sonra)
Mehdiyev Asim Yaqub oğlu - əsgər (ölümündən sonra)
Nəzərov Ayaz Azər oğlu - əsgər (ölümündən sonra)
Salamov Qorxmaz Bayram oğlu - əsgər (ölümündən sonra)

**"İgidliyə görə" medalı ilə**

Cavadov Fəxrəddin Nizam oğlu - polkovnik
Hacıbalayev Rahib Süleyman oğlu - mayor
Həsənov Hüseyn Həsən oğlu - kapitan
İsgəndərov Səxavət Qazıbəy oğlu - kapitan
Allahverdiyev Əhliman Kamran oğlu - baş leytenant
Məmmədov Araz Şəmsəddin oğlu - baş leytenant
Məmmədzadə Taleh Səxavət oğlu - baş leytenant
Muradov Əbubəkir Məhərrəm oğlu - baş leytenant
Mirzəyev Davud Mehti oğlu - leytenant
Bəkirov Rafiq Səlim oğlu - kiçik leytenant
Ağayev Fərid Səid oğlu - baş gizir
Mustafayev Taryel Vəli oğlu - baş gizir
Abdullayev Elfaq Vəzir oğlu - gizir
Abıyev Hacağa Əli oğlu - gizir
Axundov Əbülfəz Nüsrət oğlu - gizir
Ədilov Əhsən Ağasimayıl oğlu - gizir
Novruzlu Mustafa Namiq oğlu - gizir
Əhmədov Xəzri Vaqif oğlu - kiçik çavuş
Hüseynov Rahib Rabil oğlu - kiçik çavuş
Abakarov Murad Rəşid oğlu - əsgər
Abdullayev Rövşən Fariz oğlu - əsgər
Hüseynov Xəyal Həsənağa oğlu - əsgər

**"Cəsur döyüşçü" medalı ilə**

Əkbərov Aqil Fayəddin oğlu - mayor
Bünyatov İsmayıl Qəhraman oğlu - leytenant
Ağayev Elvin Bəylər oğlu - gizir
Bəşirli Sənan Nazim oğlu - gizir
Əhmədli Cavid Bağış oğlu - gizir
Əliyev Ceyhun Fazil oğlu - gizir
Gülmalıyev Loğman Bəxtiyar oğlu - gizir
Qəhrəmanov Rəşad Yaşar oğlu - gizir
Fərhadov İmran Həbib oğlu - çavuş
Həsənov Tural Qabil oğlu - çavuş
Alıyev Vüsal Yusif oğlu - kiçik çavuş
Əliyev Səbuhi Vahid oğlu - kiçik çavuş
Əlizadə Əli Rahib oğlu - kiçik çavuş
Nuri Nemət Şahbaz oğlu - kiçik çavuş
Rzayev Oruc Ənvər oğlu - kiçik çavuş
Zəkəryəyev Səyyad Ülfət oğlu - kiçik çavuş
Baloğlanov Orxan Mehman oğlu - əsgər
Həbibov Kamran Mütəllim oğlu - əsgər
İsayev Murad Mövlüd oğlu - əsgər
Yusifov Yusif Sübhi oğlu - əsgər

**"Döyüşdə fərqlənməyə görə" medalı ilə**

Ağayev Babək Bəybala oğlu - mayor
Şükürov Vüqar Fikrət oğlu - mayor
Baxşalıyev Samir Vahid oğlu - kapitan
Qafarov Hilal Malik oğlu - kapitan
Bədəlov Aqşin Şahin oğlu - baş leytenant
Zöhrabov Namiq Əskər oğlu - baş leytenant
Kərimov Fazil Baxış oğlu - baş gizir
Məmmədov Səxavət Tərlan oğlu - baş gizir
Hüseynov Nəriman Məzahir oğlu - gizir
Nagıyev Elsevər Şahvələd oğlu - gizir
Zamanov Ərşad Müslüm oğlu - gizir
Əmənov Cəmşid Cəbrayıl oğlu - kiçik çavuş
Babayev Fəzail Atamoğlan oğlu - əsgər
Əhmədov Qismət Baləhməd oğlu - əsgər
Qasımov Afyəddin Hidayət oğlu - əsgər
Vəliyev Tuqay Nurəddin oğlu - əsgər
Zeynalov Eşqin Ehtibar oğlu - əsgər

**"Suqovuşanın azad olunmasına görə" medalı ilə**

Salamov Qorxmaz Bayram oğlu - əsgər (ölümündən sonra)

**"Xocavəndin azad olunmasına görə" medalı ilə**

Qədirli Elnur Rəcəb oğlu - əsgər (ölümündən sonra)
Mehdiyev Asim Yaqub oğlu - əsgər (ölümündən sonra)

**"Kəlbəcərin azad olunmasına görə" medalı ilə**

Vəlizadə İbrahim Səməd oğlu - leytenant (ölümündən sonra)

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Əhmədov Bahadır Allahverdi oğlu - tibb xidməti polkovniki
Həziyev Samir Mətləb oğlu - polkovnik
İsmayılov Arif Aslan oğlu - tibb xidməti polkovnik-leytenantı
Nəsibov İlqar Kamil oğlu - polkovnik-leytenant
Şükürlü Mətin Əliisa oğlu - polkovnik-leytenant
Rəhimov Hüseyn Ağasən oğlu - mayor
Hacıyev Hacı Firidun oğlu - baş leytenant
Müseyibov Rafiq Əzim oğlu - leytenant
Süleymanov Ülvi İldırım oğlu - leytenant
Süleymanov Nurlan Sabir oğlu - gizir
Şahverdiyev Seymur Cəmil oğlu - gizir
Yariyev Məhəddin Abdulla oğlu - gizir
Abdullayev İlyas Seyran oğlu - kiçik çavuş
Dibirov Ramazan Ramiloviç - kiçik çavuş
Səlimov Ramiz Mübariz oğlu - kiçik çavuş
Mustafayev Ramiz Bağman oğlu - əsgər (ölümündən sonra)
Ramazanov Ramazan Ramazan oğlu - əsgər
Şərifli Şərif Seymur oğlu - əsgər.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 iyun 2023-cü il

# Azərbaycan Respublikasının müdafiə nazirinin Qurban bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki işçilər!

Qurban bayramı münasibətilə Sizi ürəkdən təbrik edir, müqəddəs və şərəfli xidmətlərinizdə uğurlar arzulayıram.

Müsəlman dünyasının mənəvi birlik, həmrəylik, qardaşlıq rəmzi olan Qurban bayramı hər il ölkəmizdə dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunur. Müqəddəs Qurban bayramı cəmiyyətimizdə milli-mənəvi dəyərlərə möhkəm bağlılığı özündə yaşatmaqla humanizmin, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsini özündə təcəssüm etdirir.

Azərbaycana rəhbərliyinin həm sovet, həm də müstəqillik dönəmində Ümummilli Lider Heydər Əliyev ölkənin dövlət quruculuğu siyasətində azərbaycançılıq məfkurəsini, milli-mənəvi dəyərlərimizi uca tutaraq adət və ənənələrimizin qorunub saxlanmasında misilsiz xidmətlər göstərmişdir.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində respublikamızın iqtisadi dayaqları gücləndərək demokratik dövlət quruculuğu prosesində beynəlxalq nüfuzu daha da artmışdır. Azərbaycan dünyada islami bəşəri və milli-mənəvi dəyərlərə önəm verən və hörmətlə yanaşan, humanist, tolerant dövlət kimi tanınır. Azərbaycan dövləti bu gün regionda sülhün, sabitliyin qorunmasının əsas təminatçısına çevrilmişdir.

Cənab Ali Baş Komandanın yüksək diqqət və qayğısı sayəsində Azərbaycan Ordusu gündən-günə qüdrətlənir, dünyanın ən güclü orduları sırasında yer alır. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazanılan parlaq qələbə Azərbaycan Ordusunun gücünü, qüdrətini bir daha dünyaya nümayiş etdirdi. Bu gün rəşadətli ordumuz işğaldan azad olunmuş ərazilərdə öz mövqelərini daha da möhkəmləndirməklə yenidənqurma-bərpa işlərinə və Böyük Qayıdışa layiqli töhfələr verməkdədir.

Torpaqlarımızın azadlığı uğrunda şəhid olan qəhrəman hərbi qulluqçularımızın ailələri və sağlamlığını itirən döyüşçülərimiz, müharibə veteranları daima dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanılır. Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində onların sosial-məişət şəraitinin yaxşılaşdırılması, qayğı və probemlərinin həlli istiqamətində mühüm addımlar atılır.

Hərbi anda sədaqətə, çətin və şərəfli xidmətdə fədakarlığa görə hər birinizə minnətdarlığımı bildirirəm. Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və mənəvi-psixoloji hazırlığınızı daha da artıraraq Ali Baş Komandanın əmr və tapşırıqlarını ən yüksək səviyyədə yerinə yetirəcəksiniz.

Respublikamızın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatları zamanı canlarından keçən şəhidlərimizin əziz xatirəsini hörmət və ehtiramla yad edir, onların valideynlərini, ailələrini, torpaqlarımızın azadlığı uğrunda sağlamlığını itirən döyüşçülərimizi, veteranları bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Sizi müqəddəs Qurban bayramı münasibətilə bir daha ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, ailə səadəti və şərəfli xidmətinizdə nailiyyətlər arzulayıram. Bu bayram həyatınıza əmin-amanlıq, firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir Həsənov**
**Azərbaycan Respublikasının müdafiə naziri**

# Müdafiə Nazirliyinin rəhbərliyi Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib



*Silahlı Qüvvələr Günü münasibətilə iyunun 26-da Müdafiə Nazirliyinin rəhbər heyəti Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, Ulu Öndərin xatirəsi hörmət və ehtiramla anılıb.

Müdafiə Nazirliyinin rəhbərliyi görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini də yad edib.

Sonra Şəhidlər xiyabanına gələn nazirliyin rəhbər heyəti ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Bütün şəhidlərimizin ruhu dərin hörmət və ehtiramla anılıb.

# Silahlı Qüvvələr Günündə hərbi hospital ziyarət edilib



*İyunun 26-da Müdafiə Nazirliyinin rəhbər heyəti Silahlı Qüvvələr Günü münasibətilə nazirliyin Baş Klinik Hospitalını ziyarət edib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lider Heydər Əliyevin hospitalın həyətində ucaldılmış abidəsi önünə gül dəstəsi qoyulub. Ulu Öndərin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov hospitalda müalicə olunan hərbi qulluqçularla görüşərək onların səhhəti ilə maraqlanıb, onlara ən qısa müddətdə sağlamlıqlarını bərpa edərək xidmət yerlərinə qayıtmalarını arzulayıb.



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təbriklərini hərbi qulluqçulara və tibb personalına çatdıran müdafiə naziri onlara bayram sovqatları təqdim edib.

Hospitalın kollektivi və müalicə olunan hərbi qulluqçular burada yaradılan şəraitə, eləcə də hərtərəfli qayğı ilə əhatə olunduqlarına görə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

Nazirliyin rəhbər heyəti tibb işçilərini bayram münasibətilə təbrik edib, müayinə və müalicə olunan hərbi qulluqçulara daha keyfiyyətli xidmət göstərilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

# Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələr təqdim edilib







*İyunun 26-da müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, ali hərbi rütbələr verilən Müdafiə Nazirliyinin hərbi qulluqçuları ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və müdafiə nazirinin müvafiq əmri təntənəli şəraitdə oxunduqdan sonra hərbi qulluqçulara ali hərbi rütbələrin təqdimetmə mərasimi keçirilib. Ali Baş Komandanın təbriklərini hərbi qulluqçulara çatdıran müdafiə naziri onlara gələcək xidmətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini çatdırıb.

Təltif olunan zabitlər isə öz növbələrində göstərilən etimada görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər, bu etimadı doğruldacaqlarına əminliklərini ifadə ediblər.

# “Ordumuzun 105-ci ildönümü “Heydər Əliyev ili”ndə qeyd olunur”

***Müsahibimiz Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - Kadrlar İdarəsinin rəisi general-mayor Elçin Xəlilovdur.***



**- Cənab general-mayor, Sizi, sizin şəxsinizdə ordumuzun şəxsi heyətini 26 İyun - Silahlı Qüvvələr Günü və Qurban Bayramı münasibətilə "Azərbaycan Ordusu" qəzetinin əməkdaşları adından təbrik edirəm.**

- Sağ olun. Mən də hər iki ümumxalq bayramlar münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edir, onlara Vətən naminə daha məsuliyyətli xidmət arzulayıram.

**- Cənab general-mayor, dünyanın böyük siyasi xadimləri müasir Azərbaycanı Heydər Əliyevin tarixi, bəşəri əsəri kimi dəyərləndirir. Bu mühüm komponentin tərkib hissələrindən biri olan ordu quruculuğunun ən mühüm, ən bəşəri mərhələsi böyük tarixi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır.**

- Tamamilə düzgün dəyərləndirmədir. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra, 1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması barədə qərar qəbul edildi, oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti tərəfindən silahlı qüvvələrin yaradılması haqqında qanun qəbul olundu. Bunlar ordunun yaradılması üçün gərəkli hüquqi sənədlər idi. Ancaq ordu dünyəvi ordular formatında yaradılmırdı. Belə bir dövrdə torpaq iddiasına görə Ermənistan Azərbaycana qarşı elan etmədən müharibəyə başlamışdı. Yaradılmış hərbi hissələr bu və ya digər səbəblərdən döyüş əməliyyatları aparma səviyyəsində deyildi.

Azərbaycanda nizami ordunun qurucusu böyük tarixi şəxsiyyət Heydər Əliyev oldu. Belə ki, Azərbaycanda hakimiyyət boşluğu, separatçılıq, mövcud yerli müdafiə taborları bu və ya digər siyasi qurumların mənafeyinə xidmət etməsi dövlət müstəqilliyinin iflası həddinə gətirmişdi. Böyük tarixi şəxsiyyət Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdı. Bu, Azərbaycanın dövlətçiliyinin xilası idi. Ulu Öndərin sərəncamı ilə yerli müdafiə taborları buraxıldı, orduda vahid komandanlıq yaradıldı.Bunlar ordunun nizami ordu kimi formalaşmasının başlanğıcı idi.

**- Qeyd etdiniz ki, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı, orduda vahid komandanlığın yaradılması, nizami ordunun formalaşmasının başlanğıcı idi. Bəs həmin dövrdə döyüşən şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin artırılması istiqamətində hansı mühüm addımlar atıldı?**

- Böyük tarixi şəxsiyyət ordunun şəxsi heyətinin döyüş hazırlığı ilə yanaşı mənəvi-psixoloji hazırlığının tamamlanmasını da təmin etdi. Bu istiqamətdə görülən işlər, atılan addımlar öz müsbət nəticəsini verməyə başladı. Uğurlu Horadiz əməliyyatı ordu quruculuğunun bu mühüm tezisini yerinə yetirdi. Bu qələbə Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş əzmini, qələbə ruhunu yüksəltdi. Hərbi ekspertlər də təsdiqləyirlər ki, Horadiz əməliyyatında qazanılan qələbə gələcək qələbələrdə olduqca gərəkli mənəvi-psixoloji stimul oldu. Bu baxımdan deyə bilərik ki, böyük tarixi şəxsiyyət Heydər Əliyevin formalaşdırdığı ordu qazandığı qələbə ilə şəxsi heyəti yüksək mənəvi-psixoloji ovqata köklədi.

**- Cənab general-mayor, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ordunu bütün istiqamətlər üzrə inkişaf etdirdi. Keçirilən irimiqyaslı islahatlar, genişmiqyaslı beynəlxalq təlimlər, Azərbaycan Ordusunun arsenalına daxil edilən müasir silah və texnika torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələndi. Bu barədə nə deyə bilərsiz?**

- "1993-cü ilin sonlarından başlayaraq həyata keçirilmiş xüsusi tədbirlər nəticəsində milli ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı. Hazırda Azərbaycan Ordusu müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordudur. Milli ordumuz müstəqil dövlətimizin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və ölkəmizin ərazi bütövlüyünün təminatçısıdır" - bu fikirlər böyük tarixi şəxsiyyət Heydər Əliyevə məxsusdur. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Ulu Öndərin formalaşdırdığı ordunu bütün parametrlər üzrə inkişaf etdirdi. Ordu quruculuğunda həyata keçirilən böyük islahatlar, genişmiqyaslı beynəlxalq təlimlər, silahlanmaya yeni silahların daxil edilməsi, şəxsi heyətin yeni döyüş texnikalarının, uçuş aparatlarının, atıcı silahların istismar xüsusiyyətlərini mükəmməl səviyyədə mənimsəməsi Azərbaycan Ordusunu dünyanın ən güclü orduları sırasına çıxartdı. Nəticədə torpaqlarımız düşmən işğalından azad edildi. Bu, Heydər Əliyev dühasının Azərbaycana misilsiz xidmətinin nəticəsidir.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bir fikri Azərbaycanda ordu quruculuğu prosesində Heydər Əliyev mərhələsini belə ifadə edir: "Heydər Əliyevin ordu quruculuğu sahəsində çox böyük xidmətləri olmuşdur. Məhz onun fəaliyyəti nəticəsində nizami ordu yaradılmışdır".

**- Ordu quruculuğu prosesi həm də kadr siyasəti ilə bağlıdır. Bu baxımdan zabit kadrları hazırlığının müəyyən mərhələləri Sizin rəhbərlik etdiyiniz idarənin fəaliyyəti ilə bağlıdır.**

- Ordu quruculuğu çoxşaxəli prosesdir. Bu proses maddi-texniki bazanı da əhatə edir, şəxsi heyətin döyüş hazırlığını da, ordunun zabit kadrları ilə komplektləşdirilməsini də. Yəni, ordu quruculuğu bütöv bir prosesdir və dövlətin nəzarəti altında həyata keçirilir. Bu prosesi şərtləndirən amillər vahid bir məqsədin tərkib hissələridir.

Ordu quruculuğu bilavasitə orduda kadr siyasəti ilə əlaqəlidir. Hərbçi kadrların hazırlanması, onların şərəfli xidməti, hərbi biliklərinin artırılması, təkmilləşdirilməsi həm hərbi təhsillə, həm də hərbi xidmətlə davam etdirilir. Bu baxımdan hərbi xidmət hərbi təhsilin məntiqi davamıdır. Buna görə də hərbi xidmətin başlanğıcı olan hərbi təhsil vahid ideoloji struktur olmaqla hərbi təhsil sistemi kimi dövlət üçün prioritetdir. Böyük tarixi şəxsiyyət Heydər Əliyev bu sahəyə Azərbaycan sabiq SSRİ-nin tərkibində olan dövrdə də böyük əhəmiyyət verirdi, Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra da. Birmənalı şəkildə deyilməlidir ki, Azərbaycanda hərbçi kadrların hazırlığı həmişə Ulu Öndər Heydər Əliyevin ciddi nəzarəti altında olub.

**- Hələ sovetlər dönəmində Azərbaycanda ibtidai hərbi məktəbin yaradılması respublikada hərbçi kadrların hazırlanması, həmin vaxt üçün cəsarətli və böyük tarixi bir addım idi.**

- Bəli, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və dönməz təkidi ilə yaradılan Cəmşid Naxçıvanski adına Hərbi Lisey azərbaycanlı zabit korpusunun genişləndirilməsində olduqca əhəmiyyətli oldu. Hərbi təhsil sistemində həyata keçirilən islahatlar bu məktəbin yaradılmasının məntiqi davamı kimi tarixləşdi. Bakı Ümumqoşun Komandirlər Məktəbinə general-leytenant Valeh Bərşadlının rəis təyin edilməsi bu məktəbdə təhsil alan azərbaycanlı kursantların sayının artmasında mühüm amil oldu. Eləcə də SSRİ-nin ali hərbi məktəblərinə daha çox azərbaycanlı kursant göndərilməyə başlandı. Bu kursantlar Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra ordumuzda zabit kimi xidmət etdilər, yüksək rütbələrə layiq görüldülər. Yəni, hərbi təhsil sistemində həyata keçirilən islahatlar ordunun kadr siyasətinin mühüm tərkib hissələrindəndir.

Naxçıvanda fəaliyyətə başlayan Heydər Əliyev adına Hərbi Lisey də bu vacib şəbəkədə olduqca gərəkli fəaliyyət göstərməkdədir.

Hərbi təhsil sisteminin şəbəkəsi də genişləndirildi. Azərbaycan Respublikası Prezidentinin 20 fevral 1999-cu il tarixli fərmanı ilə yaradılan Silahlı Qüvvələrin Hərbi Akademiyası ali hərbi təhsilli komandir və qərargah zabitlərinin, hərbi-elmi işçilərin hazırlanmasını, hərbi elmi tədqiqatların aparılmasını, hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrənilməsini əhatələyən geniş imkanlara malik hərbi təhsil müəssisəsi kimi fəaliyyətə başladı. Bu, ordu quruculuğunda kadr siyasətinin də uğurla aparılmasında önəmli oldu.

Azərbaycan Respublikası Prezidentinin 20 may 2022-ci il tarixli Sərəncamı ilə Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə Milli Müdafiə Universiteti yaradıldı.

Silahlı Qüvvələrin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və digər xüsusi təyinatlı təhsil müəssisələri öz fəaliyyətlərini yeni yaradılan Milli Müdafiə Universitetinin nəzdində Hərbi Elmi-Tədqiqat İnstitutu, Hərbi İdarəetmə İnstitutu, Heydər Əliyev adına Hərbi İnstitut, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Heydər Əliyev adına Hərbi Lisey, Cəmşid Naxçıvanski adına Hərbi Lisey və Tibb Universitetinin Hərbi Tibb Fakültəsi kimi fəaliyyət göstərir. Bunlar Müdafiə Nazirliyi Kadrlar İdarəsinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ordu quruculuğu istiqamətində kadr siyasətini uğurla aparmaq və fəaliyyətini keyfiyyətli təmin etmək üçün vacib potensialdır.

Belə ki, Azərbaycan Ordusunda aparılan kadr istahatları tətbiq edilən yeniliklər, zabit heyətinin peşəkarlığının artırılması prosesi cənab Ali Baş Komandanın tapşırıq və tələblərinə, həmçinin müdafiə nazirinin qərar, əmr və direktivlərinə uyğun olaraq həyata keçirilir.

**- Cənab general-mayor, İkinci Qarabağ müharibəsi qələbə ilə başa çatdı. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə döyüşlərdə fərqlənənlər orden və medallarla təltif edildilər.**

- 2020-ci ilin sentyabrına kimi zabitlər də, əsgərlər də Ali Baş Komandanın əmri ilə başlanacaq döyüşlərdə iştirak etməyi arzulayırdılar. Torpaqlarımızın işğaldan azad edilməsi üçün bütün hərbi qulluqçular döyüşləri yüksək döyüş əzmi ilə, qələbə ruhu ilə gözləyirdilər. Azərbaycan Ordusunun şəxsi heyəti Vətən uğrunda, torpaqlarımızın azad edilməsi istiqamətində döyüşdülər. Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə tarixi Zəfər qazandılar. Düşünürəm ki, şəxsi heyət üçün ən böyük təltif Zəfərə görə xalqın sevgi və ehtiramı oldu. Hərbi xidmətini davam etdirən zabitlər, gizirlər bu sevgini, bu ehtiramı sədaqətlə yaşadır, təyin olunduğu yeni vəzifələrdə xidməti bu ovqatla davam etdirirlər. Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə verilən fəxri adlar, orden və medallar ordumuza göstərilən diqqət və qayğının, eləcə də əldə olunan Zəfərin qiymətləndirilməsinin təcəssümüdür.

**- Zəfərdən sonra ordu quruculuğunda həyata keçirilən tədbirlər kadr siyasətini də əhatə edir. Ordu quruculuğunu şərtləndirən vacib amillərdən biri olan mənəvi-psixoloji hazırlığı Şəxsi Heyət Baş İdarəsi tənzimləyir. Zəfərdən sonra bu hazırlıq prosesinə hansı yeni metodlar tətbiq edilir?**

- Qeyd etdiyim kimi, İkinci Qarabağ müharibəsi iştirakçısı olmuş zabitlər ictimai-siyasi hazırlıq dərslərində, müxtəlif miqyaslı vətənpərvərlik tədbirlərində döyüşlərdən danışırlar. Bunlar əsgərlər üçün qeyri-rəsmi dərslik olur. Şuşa uğrunda döyüşlərə heyrəti ifadə edir, Azərbaycan Ordusunun zabitləri bu heyrəti də Zəfərdən sonrakı mənəvi-psixoloji hazırlığın tərkib hissəsi kimi yaşadırlar. Yəni, zabitlərimiz xidmətlərini İkinci Qarabağ müharibəsində qazanılmış Zəfərin qüruru ilə davam etdirirlər.

**- Bu qürurun davamı işğaldan azad edilmiş ərazilərə böyük qayıdışın başlamasıdır.**

- Bəli, böyük qayıdış Zəfərin davamıdır. Sakinlərin Zəngilanın Ağalı kəndinə, sonra Talış kəndinə, sonra Laçına qayıdışı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə uğurla davam edən bərpa - quruculuq işlərinin nəticəsidir. Əhali illər sonra doğma kəndlərinə qayıdışa görə Müzəffər Ali Baş Komandana, qalib Azərbaycan Ordusuna minnətdarlıqlarını bildirirlər.

**- Cənab general-mayor, Silahlı Qüvvələrin 105 illiyi və Qurban Bayramı ilə əlaqədar şəxsi heyətə arzularınız...**

- Böyük tarixi şəxsiyyət Heydər Əliyevin nizami ordu kimi formalaşdırdığı Azərbaycan Ordusunu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qüdrətli ordu səviyyəsinə çatdırdı. Ordumuzun bütün zabitləri, gizirləri, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları, əsgərləri qalib orduda xidmət etdikləri üçün qürur duyurlar. Mən də onların hər birini səmimi-qəlbdən hər iki bayram münasibətilə təbrik edir, xidməti uğurlar arzulayıram.

**Müsahibəni apardı:
mayor
Məhəmməd NƏSİRLİ
"Azərbaycan Ordusu"**

# 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib

26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun birlik, birləşmə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi hissələrdə ictimai-siyasi hazırlıq dərsləri, "dəyirmi masa"lar, konfranslar, muzeylərə ekskursiyalar, o cümlədən kitab, foto və rəsm sərgiləri təşkil olunub, sənədli və bədii filmlər nümayiş etdirilib. Həmçinin şəhidlərimizin məzarları ziyarət olunub və onların ailələri ilə görüşlər keçirilib.



Bayram tədbirlərində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin, həmçinin mədəniyyət və incəsənət nümayəndələrinin, rayon mədəniyyət şöbələri kollektivlərinin iştirakı ilə konsert proqramları təqdim olunub.

Silahlı Qüvvələr Günü, həmçinin Azərbaycan Respublikasının xaricdəki nümayəndəliklərində də təntənəli şəkildə qeyd edilib.

Tədbirlərdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

* * *

26 iyun - Silahlı Qüvvələr Günü münasibətilə Əlahiddə Ümumqoşun Orduda tədbirlər keçirilib, hərbi qulluqçular təltif edilib.

Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrində keçirilən tədbirlərdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi yad edilib, Dövlət Himnimiz səsləndirilib.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun və müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayevin təbrikləri şəxsi heyətə çatdırılıb.



Təbriklər oxunduqdan sonra hərbi qulluqçulara müxtəlif adda medallar, vaxtından əvvəl və növbəti hərbi rütbələr, fəxri fərman və qiymətli hədiyyələr təqdim edilib.

Tədbirlərdə xüsusi təyinatlı bölmələrin şəxsi heyəti döyüş bacarıqlarını və fiziki dözümlülüklərini nümayiş etdiriblər.

Sonda şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.

26 iyun - Silahlı Qüvvələr Günü ilə əlaqədar birləşmə, hissə və bölmələrdə bayram süfrələri təşkil olunub və muxtar respublikanın mədəniyyət kollektivləri hərbi qulluqçuların qarşısında konsert proqramları ilə çıxış ediblər.

* * *

Gəncə şəhərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi çərçivəsində 26 İyun - Silahlı Qüvvələr Günü böyük təntənə ilə qeyd edildi. Belə ki, Müdafiə Nazirliyinin Quru Qoşunları Komandanlığının, Gəncə Şəhər İcra Hakimiyyətinin və Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə Heydər



Əliyev Park - Xiyaban Kompleksində Silahlı Qüvvələr Gününə həsr olunmuş təntənəli tədbir keçirildi. Tədbirdə müdafiə nazirinin müavini Quru Qoşunları komandanı general-leytenant Ənvər Əfəndiyev, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki vitse-konsolu, YAP Gəncə şəhər təşkilatının sədri, ictimaiyyət nümayəndələri və şəhər sakinləri iştirak etdilər.

Tədbir iştirakçıları əvvəlcə Gəncə şəhər Şəhidlər xiyabanını ziyarət etdilər. "Əbədi Məşəl" abidəsi önünə əklil qoyuldu və gül dəstələri düzüldü. Ulu Öndər Heydər Əliyevin adını daşıyan Mərkəzin önündə ucaldılmış abidə ziyarət olundu, önünə əklil qoyuldu və xatirəsi dərin ehtiramla yad edildi. Sonra Heydər Əliyev Park - Xiyaban Kompleksinin Zəfər Tağı önündə Azərbaycan Ordusunun silahlanmasında olan hərbi texnika, silah, təchizat və təminat vasitələri nümayiş olundu.

Gəncə şəhər parkının ərazisindəki amfiteatrda davam edən tədbirdə Ulu Öndər Heydər Əliyevin və ərazi bütövlüyümüz, müstəqilliyimiz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Silahlı Qüvvələrin yaradılmasının 105-ci ildönümünə həsr olunmuş tədbiri giriş nitqi ilə açan müdafiə nazirinin müavini - Quru Qoşunları komandanı



general-leytenant Ənvər Əfəndiyev tədbir iştirakçılarını salamladı və çıxışını davam etdirdi. "Yoldaş zabitlər, gizirlər, çavuşlar və əsgərlər! Hörmətli qonaqlar, xanımlar və bəylər!

Silahlı Qüvvələrimizin 105-ci ildönümünə həsr edilmiş bu tədbirdə iştirakınıza görə hər birinizə minnətdarlığımı bildirirəm, hər birinizi həm müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından, həm də öz adımdan salamlayır, Silahlı Qüvvələr Günü münasibətilə hamınızı təbrik edirəm. İlk dəfə Azərbaycan Demokratik Respublikasının Nazirlər Şurasının 26 iyun 1918-ci il tarixli qərarı ilə təməli qoyulan Azərbaycan Ordusu, Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusu ilə birlikdə torpaqlarımızın erməni-bolşevik işğalından azad edilməsində misilsiz xidmətlər göstərmiş, Bakıda keçirilən ilk hərbi paradla zamanın sınağından alnıaçıq, üzüağ çıxaraq, xalqımızın müdafiəçisi, dövlətçiliyimizin qarantı olduğunu nümayiş etdirmişdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ordu quruculuğunda müstəsna xidməti olan dahi şəxsiyyətdir. Əbədiyaşar Komandan olaraq 1971-ci ildə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin yaradılmasında məhz dahi şəxsiyyət Heydər Əliyevin müstəsna rolu oldu və bununla da gənclərimizin ali hərbi təhsil almaları ilə milli zabit kadrlarının hazırlanması hədəf seçildi. Azərbaycan Respublikası Ali Sovetinin 9 oktyabr 1991-ci il tarixli "Silahlı Qüvvələrin yaradılması haqqında" qərarı ilə mürəkkəb ictimai-siyasi vəziyyət şəraitində Silahlı Qüvvələrin yenidən yaradılmasına başlandı. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin yorulmaz fəaliyyətinin, dövlətçilik təfəkkürünün və siyasi uzaqgörənliyinin nəticəsində ordumuz müstəqilliyimizin daimi və əbədi olmasının qarantına çevrildi. Və Ulu Öndər kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Ordu quruculuğu sahəsində atdığı ardıcıl və mütəşəkkil addımlar nəticəsində Azərbaycan Ordusu dünyanın müasir orduları sırasında özünə layiqli yer tutaraq, 44 günlük Vətən müharibəsində mənfur düşmənə öz gücünü və qüdrətini nümayiş etdirərək 30 ilə yaxın işğal altında olan torpaqlarımızı düşməndən azad etdi.

Fürsətdən istifadə edərək, bütün şəhidlərimizin yaxınlarına Allahdan səbir, yaralılara şəfa arzulayıram və İkinci Qarabağ müharibəsində qələbənin əldə edilməsində göstərdikləri qardaşlıq dəstəyinə görə Türkiyə Silahlı Qüvvələrinin mənsublarına və qəhrəman türk xalqına xalqımız və ordumuz adından minnətdarlığımı bildirirəm. 44 günlük haqq savaşı zamanı döyüş meydanında hərbi qulluqçularımızın nümayiş etdirdikləri qəhrəmanlıq nümunələrinə istinadən əminliklə qeyd etmək olar ki, bu gün Azərbaycan Ordusu möhkəm tarixi köklər üzərində formalaşmış mərdlik və şücaət məktəbidir. Əmin ola bilərsiniz ki, Azərbaycan Ordusu bundan sonra da xalqımızın və dövlətimizin etimadını şərəflə doğruldacaq.

Mən bir daha Silahlı Qüvvələrimizin yaradılmasının 105-ci ildönümü münasibəti ilə hər birinizi təbrik edir, hərbi qulluqçularımıza şərəfli xidmətlərində uğurlar, xalqımıza xoşbəxtlik, əmin-amanlıq və sülh arzulayıram".

Tədbirdə çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov qeyd etdi ki, qüdrətli Azərbaycan Ordusu müasir və müstəqil dövlətimizin memarı və qurucusu Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşıb. Əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan və onun layiqli davamçısı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilən ordu quruculuğu siyasəti sayəsində Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü ordusudur. Rəşadətli ordumuz öz gücünü 44 günlük Vətən müharibəsi zamanı yazdığı şanlı tarix, şanlı qələbə ilə Azərbaycan tarixinin səhifələrinə qızıl hərflərlə yazmağı bacardı.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra 26 iyun - Silahlı Qüvvələr Gününə həsr olunmuş tədbirin konsert hissəsinə start verildi. Hərbi vətənpərvərliyi tərənnüm edən musiqi kompozisiyaları nümayiş olundu. Hərbçilərin təqdimatında nümunəvi çıxışlar izləyicilər tərəfindən maraqla qarşılandı. Tədbir əsnasında Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin nümayəndələri tərəfindən "Əsgərə məktub" kampaniyası da təşkil olundu ki, şəhər camaatı Azərbaycan əsgərinə ürək sözlərini ünvanladı. Silahlı Qüvvələrimizin 105-ci ildönümünə həsr olunan möhtəşəm bayram tədbiri atəşfəşanlıqla başa çatdı.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə "N" hərbi hissəsində tədbir keçirildi.

Tədbirdə Füzuli Dövlət Dram Teatrının nümayəndələri və hərbi hissələrin şəxsi heyəti iştirak etdilər.

Tədbirdə çıxış edən polkovnik-leytenant Neymət Rəhimov bildirdi ki, Azərbaycan Silahlı Qüvvələri dövlətimizin qüdrət rəmzi, hər birimizin iftixar yeri, müstəqilliyimizin qoruyucusudur. Daha sonra Azərbaycan Ordusunun yaranmasından və inkişaf mərhələlərindən danışan zabit əlavə etdi ki, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə Əlahiddə Azərbaycan Korpusu yaradıldı. "1993-cü ilin ikinci yarısında



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın dövlətçilik tarixində istinad nöqtəsi oldu. Tarixi şəxsiyyətlər tarixin axarını xalqının, millətinin mənafeyi istiqamətinə yönəldə bilir. Mustafa Kamal Atatürk Türkiyəni xilas etdi, Heydər Əliyev Azərbaycanı.

**(Ardı 7-ci səhifədə)**

# Heydər Əliyev adına Hərbi İnstitutda buraxılış mərasimi keçirilib



*İyunun 24-də Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunda 2023-cü ilin buraxılışına həsr olunan təntənəli mərasim keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, buraxılış mərasimində Milli Müdafiə Universitetinin rəhbərliyi, Müdafiə Nazirliyinin nümayəndələri, hərbi institutun şəxsi heyəti, müəllimlər, məzunlar, valideynlər, eləcə də ictimaiyyət və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə hərbi institutun qərargahı qarşısında ucaldılan Ulu Öndər Heydər Əliyevin abidəsi, eləcə də institutun Vətən müharibəsində şəhid olan hərbi qulluqçularının Xatirə kompleksi ziyarət olunaraq qarşısına qızılgüllər qoyulub. Ümummilli Liderin və Vətənimizin müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Mərasimdə hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, hərbi institutun Döyüş bayrağı təntənəli surətdə sıra meydanına gətirilib.

Milli Müdafiə Universitetinin rektoru professor, general-leytenant Heydər Piriyev çıxış edərək mərasim iştirakçılarını salamlayıb, gənc zabitləri Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edib, onlara xalqımıza, dövlətimizə, qalib ordumuza və Ali Baş Komandanımıza layiqli zabit olmağı arzulayıb.



General-leytenant H.Piriyev ordu quruculuğunda aparılan islahatların müsbət nəticələrindən, hərbi qulluqçuların döyüş ruhunun, mənəvi-psixoloji vəziyyətinin yüksəldilməsi, eləcə də sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən söz açıb, hərbi institutun məzunlarının 44 günlük Vətən müharibəsində iştirakından danışıb.

Gənc zabitlər də öz növbəsində göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirib, Vətənə, dövlətə və xalqa layiqincə xidmət edəcəklərinə söz veriblər.

Sonra hərbi təhsil müəssisəsini fərqlənmə ilə bitirənlərə diplom və hədiyyələr təqdim olunub.

Heydər Əliyev adına Hərbi İnstitutun Döyüş bayrağının təhvili və qəbulu mərasimi keçirildikdən sonra yaş kötüyünə simvollar vurulub.

Hərbi orkestrin və kursantların ifasında hərbi institutun marşı ifa edilib, şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.







# Əməliyyat-taktiki fakültənin dinləyicilərinin buraxılış mərasimi keçirilib



Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində Əməliyyat-taktiki fakültənin II kurs dinləyicilərinin buraxılışına həsr olunmuş mərasim keçirilib.

Polkovnik Bəbir Quliyev buraxılış mərasiminin proqramını tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimin ssenarisinə əsasən, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Milli Müdafiə Universitetinin rektoru professor, general-leytenant Heydər Piriyev çıxış edərək mərasim iştirakçılarını salamlayıb, kursu müvəffəqiyyətlə başa vurmuş dinləyiciləri təbrik edib, onlara xalqımıza, dövlətimizə, ordumuza və Ali Baş Komandanımıza layiq lider - komandir olmağı arzulayıb.

General-leytenant H.Piriyev tərəfindən kurs müddətində tədris və intizama görə fərqlənən məzunlara diplom və döş nişanları təqdim edilib. Əməliyyat-taktiki fakültənin II kursunun digər məzunlarına da diplomlar və döş nişanları Milli Müdafiə Universitetinin rəhbərliyi tərəfindən təqdim olunub.

Kurs birincisi mayor Pərvin İbadov buraxılış rəmzi olan emblemi yaş kötüyünə vurub. Daha sonra çıxış edərək Milli Müdafiə Universitetinin rəhbərliyinə, professor və müəllim heyətinə bütün dinləyicilər adından dərin minnətdarlığını bildirib.

Sonda xatirə şəkli çəkdirilib.

# NATO-nun mənzil-qərargahında Silahlı Qüvvələr Günü və Ulu Öndərin yubileyi ilə bağlı tədbirlər keçirilib

Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 105 və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyləri münasibətilə ölkəmizin NATO yanında nümayəndəliyi tərəfindən Alyansın Brüssel şəhərində yerləşən mənzil-qərargahında rəsmi qəbul və fotosərgi təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə NATO Baş katibinin köməkçiləri, NATO-nun üzv və tərəfdaş ölkələrinin Alyans yanındakı səfirləri, hərbi nümayəndələri, diplomatik korpusun üzvləri, NATO-nun Beynəlxalq Qərargahının və Beynəlxalq Hərbi Qərargahının üzvləri, Alyansın Müttəfiq Qüvvələrinin Avropadakı Ali Baş Qərargahının (SHAPE), eləcə də NATO-nun Dəstək və Təchizat Agentliyinin yüksək vəzifəli rəsmiləri iştirak ediblər.

Azərbaycanın NATO yanındakı nümayəndəliyinin başçısı Cəfər Hüseynzadə və Silahlı Qüvvələrin Alyansın Hərbi Komitəsi yanında hərbi nümayəndəsi polkovnik Ağaverdi Quliyev Silahlı Qüvvələrimizin yaranması və inkişaf yolu, həmçinin NATO ilə tərəfdaşlıq münasibətlərindən danışıblar. Çıxışlar əsnasında Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğunda və Alyansla əməkdaşlığın inkişafında tarixi xidmətləri barədə qonaqlara məlumat verilib. Ulu Öndərin uzaqgörən siyasətinin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycanın regionda ən güclü ordulardan birinə malik olduğu, 2020-ci il Vətən müharibəsi nəticəsində ordumuzun Zəfər qazanmasının və ərazi bütövlüyümüzün bərpasının bunu ən bariz şəkildə nümayiş etdirdiyi diqqətə çatdırılıb. Həmçinin ölkəmizin Alyansla çoxşaxəli tərəfdaşlığı, son olaraq Əfqanıstandakı əməliyyat da daxil olmaqla, NATO-nun iştirak etdiyi sülhməramlı əməliyyatlar çərçivəsində fəaliyyətləri və Avropanın enerji təhlükəsizliyinə töhfələri qeyd edilib.

NATO tərəfindən əsas natiq qismində Alyansın ali hərbi strukturu olan Hərbi Komitənin sədr müavini general-leytenant Lans Landrum çıxış edib. NATO rəsmisi Azərbaycanın Alyansın uzun illərdən bəri əməkdaşlıq etdiyi etibarlı tərəfdaş ölkə olduğunu bildirib. O, ölkəmizin həm siyasi dialoq, həm hərbi-praktiki tərəfdaşlıq və hərbi uyğunluğun gücləndirilməsi çərçivəsində NATO ilə münasibətlər baxımından öncül yerdə olduğunu qeyd edib.

General Landrum müttəfiq dövlətlərin Azərbaycanın Alyansın sülhməramlı əməliyyatlarına, xüsusilə Əfqanıstanda Kabil Beynəlxalq Hava Limanından





kritik təxliyə fəaliyyətlərinə dəstəyini və töhfələrini yüksək qiymətləndirdiyini bildirib.

O, çıxışında Azərbaycanla NATO arasında bir sıra istiqamətlərdə, o cümlədən enerji təhlükəsizliyi üzrə dialoq məsələsində əməkdaşlıq imkanlarına da diqqət çəkib.

# 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib

**(Əvvəli 5-ci səhifədə)**



Ulu Öndərin vahid komandanlığın təmin edilməsi sahəsində gördüyü məqsədyönlü tədbirlər nizami ordunun formalaşmasına səbəb olmaqla yanaşı, Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə də gətirib çıxartdı".

Zabit əlavə etdi ki, müasir müstəqil dövlətimizin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. - Qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik Azərbaycan Ordusu bu gün NATO standartlarına cavab verən səviyyədə formalaşmışdır. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Bu gün Azərbaycan əsgəri dövlətin qayğısını hər zaman üzərində hiss edərək, xalqdan güc alaraq torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanır. Regionda yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlığı və ərazi bütövlüyümüzə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir olmasını tələb edir. Bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur.



Beləliklə, bu gün bizim bayramımızdır. Bu bayram münasibətilə başda Müzəffər Ali Baş Komandanımız olmaqla, Müdafiə Nazirliyinin rəhbər heyətini, şəhid ailələrini, müharibə veteranlarını və sizləri səmimi-qəlbdən təbrik edirəm. Hər birinizə xidmətinizdə yeni-yeni uğurlar, cansağlığı və ailə səadəti arzulayıram.

Sonra kapitan Mərifət Hüseynov çıxış edərək bildirdi ki, Azərbaycanda Müdafiə Nazirliyinin və ordunun real şəkildə formalaşdırılması xalqımızın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra apardığı işlərin hərbi-siyasi nəticəsi olaraq ordu daxilində dərinləşməkdə olan böhranın qarşısı alındı və bu sahədə keyfiyyət dəyişikliyi yarandı.

Daha sonra zabit onu da əlavə etdi ki, Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam etdirən Müzəffər Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordumuz davamlı olaraq inkişaf edir. Dövlət başçısının tapşırığına əsasən, arsenalımızda olan silahlar yeni və müasirləri ilə əvəz edilib. Şəxsi heyətin sosial-məişət şəraiti daha da yaxşılaşdırılıb. Həmçinin Vətən müdafiəçilərinin mənəvi-psixoloji vəziyyəti yüksək səviyyəyə çatdırılıb. Bir sözlə rəşadətli Azərbaycan Ordusunun maddi-texniki təminatı Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında müasir standartlara cavab verir. Bunların nəticəsidir ki, Vətən müharibəsi dövründə ordumuz düşməni məhv edib, tarixi torpaqlarımızı gerçək sahibinə geri qaytardı".

Çıxış edən Füzuli Dövlət Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi Vaqif Vəliyev dedi ki, bu gün regionun ən güclüsü olan Azərbaycan Ordusunun 105-ci ildönümüdür. Bu münasibətlə hərbi mundiri şərəf və ləyaqətlə daşıyan bütün oğullarımızı səmimi-qəlbdən təbrik edir, xidmətlərində uğurlar arzulayıram. "2020-ci ildə qüdrətli ordumuz düşmənin həyata keçirdiyi təxribatın qarşısını alaraq, əks-hücum əməliyyatına başladı. Cəmi 44 gün davam edən haqq savaşımızda ordumuz öz gücünü, məğrur döyüşçülərimiz isə öz iradəsini, vətənpərvərliyini, qorxmazlığını və cəsurluğunu bütün dünyaya nümayiş etdirdi. Bu döyüşlər zamanı qazanılan şanlı qələbə Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazıldı. Beləliklə, bu xoş günü bizlərə öz qətiyyətli və sarsılmaz iradəsi ilə yaşadan Müzəffər Ali Baş Komandanımıza təşəkkür edirəm".



Tədbirin sonunda Füzuli Dövlət Dram Teatrının nümayəndələri rəngarəng çıxışlar edib, şəxsi heyətə bayram ovqatı yaşatdılar.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

İyunun 25-də Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 105 illiyi və Qurban bayramı münasibətilə tədbir keçirildi.

Hərbi Polis İdarəsinin rəisi polkovnik-leytenant Elgün Əliyev çıxış edərək Azərbaycan Ordusunun tarixindən və inkişaf yolundan danışdı. Rəşadətli ordumuzun banisi Əbədiyaşar Komandan Heydər Əliyevin ordu quruculuğu sahəsinə verdiyi töhfələrdən söz açdı. İdarə rəisi qeyd etdi ki, əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuş Azərbaycan Ordusunun inkişaf yolu Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Onun ordu quruculuğu sahəsindəki ciddi səyləri ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan verdi və Azərbaycan Ordusunun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaratdı. "Böyük şəxsiyyətin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətlərindən biri də müasir Azərbaycan Ordusunun memarı olmasıdır. Müstəqilliyimizin və ərazi bütövlüyümüzün etibarlı qarantı olan bugünkü güclü, rəşadətli Azərbaycan Ordusu Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şah əsərlərindən biridir. Dahi rəhbərin hələ 1969-cu ildə hakimiyyətə gəlişindən sonra müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesi geniş vüsət almışdır. Onun təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradılmışdır. O zaman bu qərarı vermək böyük cəsarət tələb edirdi. Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq məktəbin yaradılmasına o vaxtkı SSRİ rəhbərliyi laqeyd yanaşa bilməzdi. Həmin dövrdə bir-birinin ardınca Moskvadan Bakıya göndərilən komissiyalar Azərbaycanda belə bir hərbi məktəbə ehtiyac olmadığını əsaslandırmağa çalışsalar da, Ümummilli Liderin mahir diplomatiyası və uzaqgörən siyasəti bu cəhdlərin qarşısını almış, həmin məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrlarının hazırlanmasına gətirib çıxarmışdır. Təsadüfi deyil ki, C.Naxçıvanski adına hərbi lisey Azərbaycan müstəqilliyini bərpa edəndən sonra ordu quruculuğunda əsas bazalardan birinə çevrildi. Orduda xidmət edən gənclərə yüksək diqqət və qayğı göstərən, onların xidmətini hər zaman yüksək qiymətləndirən Əbədiyaşar Komandan çıxışlarının birində hərbçilərimizə olan rəğbətini belə ifadə etmişdi: "Bütün peşələr şərəflidir, lakin hərb peşəsi bütün peşələrdən şərəflidir. Hərbçi olmaq sizlərin də ən birinci seçiminiz olmalıdır. Çünki bu yol mərdlik, cəsurluq, vətənpərvərlik yoludur. Bu yol qəhrəmanlıq yoludur".

Çıxışını davam edən polkovnik-leytenant Elgün Əliyev bildirdi ki, bu gün Ulu Öndərin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Azərbaycan Ordusunun ən müasir silah və texnika ilə təchizatı daim ön planda saxlanılır. "Məhz bu diqqət və qayğının sayəsində Azərbaycan Ordusu qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrildi. Cənab Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli ordumuz Aprel və Günnüt döyüşlərində, 44 günlük Vətən müharibəsində şanlı zəfər qazanaraq xalqımıza Böyük Qələbə sevincini yaşatdı. Bu qələbələr Azərbaycan Ordusunun yüksək döyüş hazırlığına, güclü maddi-texniki bazaya, ən müasir silah-sursata malik olmasının, həmçinin Azərbaycan hərbçilərinin mətinliyinin, igidliyinin, Vətən sevgilərinin göstəricisi oldu. Hər birimiz fəxr edirik ki, rəşadətli və qalib Azərbaycan Ordusunun mənsublarıyıq. Hər iki bayram münasibətilə sizi təbrik edir, möhkəm cansağlığı, ailə səadəti və xidmətinizdə uğurlar arzulayıram", - polkovnik-leytenant Elgün Əliyev dedi.

Hərbi Polis İdarəsinin digər əməkdaşları çıxış edərək ordu quruculuğu siyasətindən və Qurban bayramının tarixindən, mahiyyətindən və şərtlərindən danışdılar.

Sonda Ulu Öndərin ordu quruculuğu sahəsində apardığı islahatları və islam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı haqqında videoçarx nümayiş olundu.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**



Azərbaycan Hərb Tarixi Muzeyi, Gənclərin Maarifləndirilməsinə Dəstək İctimai Birliyi və Abbas Mirzə Şərifzadə adına Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə 26 İyun - Silahlı Qüvvələrin yaradılmasının 105-ci ildönümünə həsr olunmuş "Zəfərin qazanılmasında Heydər Əliyev ideyaları" adlı tədbir keçirildi.

Azərbaycan Hərb Tarixi Muzeyinin açıq səma altındakı ekspozisiyasında keçirilən tədbirdə Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, bir qrup qeyri-hökumət təşkilatlarının nümayəndələri, müharibə veteranları və başqa qonaqlar iştirak etdilər.

Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi istefada olan polkovnik Əzizağa Qənizadə "Azərbaycan Ordusu 105 ildə" adlı məruzə ilə çıxış etdi.

Muzey rəisi çıxışında 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edərək onlara şərəfli xidmətlərində uğurlar arzuladı və ölkəmizdə aparılan hərbi quruculuq tarixindən, Ulu Öndər Heydər Əliyevin respublikanın müdafiə qüdrətinin artırılmasında göstərdiyi misilsiz xidmətlərindən, Böyük Zəfərin qazanılmasında Heydər Əliyev ideyalarının rolundan, Müzəffər Ali Baş Komandanın müdrik və uzaqgörən siyasətindən geniş bəhs etdi.

Tədbirdə çıxış edənlər Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında yer aldığını və bunun nəticəsi olaraq, 30 ilə yaxın erməni silahlı birləşmələrinin işğalında qalan tarixi ərazilərimizin azad edilməsindən, böyük qələbənin qazanılmasında ölkəmizin güclü hərbi potensiala malik olmasından danışdılar.

Tədbir Abbas Mirzə Şərifzadə adına Mədəniyyət Mərkəzinin üzvlərinin ifasında hərbi vətənpərvərlik mahnılarının səsləndirilməsi ilə davam etdi.

Sonda tədbir iştirakçıları Azərbaycan Modelistlər Klubunun üzvləri İlqar İsmayılov, Fuad Paşayev və Namiq Bəşirov tərəfindən hazırlanmış texnikalardan ibarət "Zəfər festivalı" adlı sərgiyə baxış keçirtdilər.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## Hərbi qulluqçumuz yaralanıb

İyunun 27-si saat 20:05-də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən ordumuzun Ağdam rayonunun Qalayçılar kəndi istiqamətində yerləşən mövqeləri atıcı silahlardan atəşə tutulub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, atəş nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu Bəkirov Əli Şükür oğlu yaralanıb.

Yaralı hərbi qulluqçumuz dərhal hərbi tibb müəssisəsinə təxliyə edilib, həyatı üçün təhlükə yoxdur.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülür.

## Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlər növbəti xidmət yerlərinə göndərilib



Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlər növbəti xidmət yerlərinə yola salınıblar.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, gənc əsgərlərin ixtisas hazırlıqlarını uğurla bitirmələri münasibətilə keçirilən mərasimdə Ulu Öndərin və şəhidlərimizin əziz xatirəsi yad edilib və Dövlət Himnimiz səsləndirilib.

Çıxış edən zabit, əsgər və valideynlər kurslar zamanı keçirilən məşğələlərdə peşəkarlaşan gənc əsgərlərə xidmətlərində uğurlar arzulayıblar.

General-mayor Məhəmməd Həsənov ixtisas hazırlığı kurslarını uğurla başa vurmaları və 26 iyun - Silahlı Qüvvələr Günü münasibətilə şəxsi heyəti təbrik edib. Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin diqqət və qayğısı sayəsində 105 yaşlı Azərbaycan Ordusunun tərkib hissəsi kimi Əlahiddə Ümumqoşun Ordunun da maddi-texniki bazasının möhkəmləndirilməsinə, ən müasir silah-sursat və texnika ilə təminatına xüsusi diqqət yetirilir.

Qeyd olunub ki, ordumuzun sıralarına daxil olan gənc əsgərlər hərbi hissələrdə və təlim mərkəzlərində ümumqoşun, ixtisas və fiziki hazırlıq üzrə dərs və məşğələlər keçərək ən çətin döyüş tapşırıqlarını yerinə yetirəcək peşəkar əsgərlər kimi hazırlanırlar. Əminliklə deyə bilərik ki, ixtisas hazırlığı kurslarını uğurla başa vuran əsgərlərimiz Aprel döyüşlərində, Günnüt əməliyyatında və 44 günlük Vətən müharibəsində bizə qalibiyyəti gətirən, torpaqlarımızın azadlığı uğrunda canını və qanını əsirgəməyən igid oğulların yolunu şərəflə davam etdirəcəklər.

Çıxışların ardından əsgərlər müxtəlif hərbi ixtisaslar üzrə qazandıqları bilik və bacarıqları nümayiş etdiriblər.

Yolasalma mərasimi şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

## Silahlı Qüvvələr Günündə hərbi qulluqçuların yürüşləri təşkil olunub




26 İyun - Silahlı Qüvvələr Günündə paytaxtın müxtəlif küçə və prospektlərində, eləcə də Bərdə və Şuşa şəhərlərində müəyyən edilən marşrutlar üzrə hərbi orkestrlərin müşayiəti ilə hərbi qulluqçuların yürüşləri təşkil olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Yürüşlərdə hərbi orkestrlərin ifasında hərbi vətənpərvərlik mahnıları, eləcə də marşlar səsləndirilib.

Keçirilən hərbi yürüşlər vətəndaşlarımızın böyük marağına səbəb olub.

## Yanğından mühafizə komandalarının təlim-metodiki toplanışı keçirilib





Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü tədris ilinə hazırlıq planına əsasən, qoşun növlərinin, birlik, birləşmə və hərbi hissələrin yanğından mühafizə komandalarının rəisləri, həmçinin yanğından mühafizə üzrə müfəttişləri ilə təlim-metodiki toplanış keçirilib.

Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsinin "N" hərbi hissəsində keçirilən toplanışda yanğın profilaktika işinin təşkili, hərbi hissənin yanğından mühafizə komandasının vəzifə borcları və hüquqları, yanğından mühafizə komandasının xidməti sənədləri üzrə təkmilləşdirmə məşğələləri təşkil olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, toplanışın keçirilməsində əsas məqsəd yanğından mühafizə komandalarının rəislərinin bilik səviyyəsini artırmaq, praktiki olaraq hər hansı yanğına qarşı praktiki vərdişləri aşılamaqdır.

## Zirehli tank xidməti rəisləri ilə toplantı keçirilib

*2023-cü ilin hazırlıq planına əsasən, "N" hərbi hissəsində zirehli tank xidməti rəisləri ilə toplantı keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, toplantı iştirakçılarına zədələnmiş texnikanın ərazidən təxliyəsinin həyata keçirilməsi, həmçinin təmir vasitələrindən düzgün istifadə qaydalarının ardıcıllığı praktiki nümayiş etdirilərək izah olunub.

Toplantının keçirilməsində əsas məqsəd zirehli tank xidməti rəislərinin bilik və bacarıqlarının daha da artırılmasıdır.

# İdman

## Cüdo üzrə Azərbaycan millisi Avropa çempionu olub



İyunun 25-də Portuqaliyanın Odivelas şəhərində keçirilən yeniyetmələr arasında Avropa çempionatının qarışıq komanda yarışlarında cüdoçularımız qızıl medal qazanıblar. Bu, Avropa çempionatlarının komanda yarışlarında qazandığımız ilk qızıl medal kimi tarixə düşüb.

Qeyd edək ki, Azərbaycan komandası ilk görüşdə Niderland yığmasını 4:1, ikinci görüşdə Almaniya yığmasını 4:2, yarımfinalda isə İtaliya yığmasını 4:2 hesabı ilə məğlub edib. Cüdoçularımızın final görüşündə rəqibi Fransa komandası olub. İdmançılarımız Fransa yığmasına 4:3 hesabı ilə qalib gələrək yarışın qızıl medallarını və kubokunu qazanıblar.

Millimiz, fərdi yarışlarda 6 qızıl və 3 bürünc medal olmaqla, 9 mükafat qazanıb və medal əyarına görə ümumi hesabda və oğlanlar arasında 1-ci, qızlar arasında isə dördüncü yeri tutub.

## Azərbaycan güləşçiləri Türkiyədə keçirilən beynəlxalq turnirdə 12 medal qazanıblar



Azərbaycan güləşçiləri Türkiyənin İstanbul şəhərində Yaşar Doğu, Vehbi Əmrə və Hamit Kaplanın xatirəsinə həsr olunan turnirdə 12 medal (3 qızıl, 2 gümüş, 7 bürünc) qazanıblar.

Beynəlxalq turnirin yunan-Roma güləşində Qurban Qurbanovla (77 kq) Murad Əhmədiyev (97 kq) ikinci, Məhəmməd Əhmədiyev (87 kq) üçüncü yeri tutub.

Qadın güləşində Birgül Soltanova (62 kq) və Elnurə Məmmədova (53 kq) bütün rəqiblərinə qalib gələrək çempion olublar. Nigar Mirzəzadə (65 kq) fəxri kürsünün 3-cü pilləsinə yüksəlib.

Sərbəst güləşdə isə Maqomed-Başir Xaniyev (70 kq) qızıl, İntiqam Vəlizadə (61 kq), Ziraddin Bayramov, Rəşid Babazadə (hər ikisi 65 kq), Orxan Abasov və Əşrəf Aşırov (79 kq) bürünc medal əldə ediblər.

## Azərbaycanın muaytay millisi Avropa Oyunlarını üç medalla başa vurub



Azərbaycanın muaytay millisi Polşada keçirilən III Avropa Oyunlarını üç medalla başa vurub.

Muaytay millimizə üçüncü medalı Emiliya Rzayeva (63,5 kq) qazandırıb. Həlledici döyüşə vəsiqə uğrunda görüşdə Tereza Steçova (Çexiya) ilə qarşılaşan təmsilçimiz məğlub olaraq bürünc medalla kifayətlənib.

Muaytay yığmamızın digər üzvləri Xəyal Əliyev (67 kq) və Aysu Devrişova (57 kq) da yarışı üçüncü pillədə başa vurublar.

Qeyd edək ki, muaytay millimiz III Avropa Oyunlarında dörd idmançı ilə təmsil olunub. Onlardan üçü mükafatçılar sırasında yer alıb.

## Ümumdünya Xüsusi Yay Olimpiya Oyunlarında iştirak edən idmançılarımız Vətənə qayıdıblar



Berlin şəhərində keçirilən Ümumdünya Xüsusi Yay Olimpiya Oyunlarında iştirak edən idmançılarımız Azərbaycana qayıdıblar.

İdmançılarımız Heydər Əliyev adına Beynəlxalq Aeroportunda böyük coşqu ilə qarşılanıblar.

Qarşılanma mərasimində ölkəmizin idman ictimaiyyətinin nümayəndələri, federasiya rəsmiləri və jurnalistlər iştirak ediblər.

Qeyd edək ki, Ümumdünya Xüsusi Yay Olimpiya Oyunlarında ölkəmizi fərqli idman növləri üzrə 49 idmançı təmsil edib. Millimiz 6 qızıl, 5 gümüş və 13 bürünc medal olmaqla, 24 medal qazanıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
İbrahim MƏMMƏDBƏYOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 347
Nüsxə 4725